VALDEMAR ZORN

ZAMANLA ƏBƏDİYYAT ARASINDA

İNSANIN XİLASI ÜÇÜN ALLAHIN PLANI

VALDEMAR ZORN

ZAMANLA ƏBƏDİYYAT ARASINDA

İNSANIN XİLASI ÜÇÜN
ALLAHIN PLANI

Valdemar Zorn
Zamanla əbədiyyat arasında
İnsanın xilası üçün Allahın planı

© "Şərqdə Ulduz", 2016

©2016 Waldemar Zorn
for the Azeri edition

Bu sərbəst surətdə çıxarıla və ya
elektron şəkildə paylana bilər

MÜNDƏRİCAT

Başlanğıcda 5

Tanrı peşman oldu 11

Babil qülləsi. 17

Əcdadlar dövrü 23

Dağda nur 29

Çətinliklə dolu minillik 35

Zamanın tamlığı. 41

Dirilməyə şahid olanların zamanı 47

Göylərdə adları qeyd edilmişlər 53

Xilası axtaranlar üçün bir neçə məsləhət 59

Sənin daha çox ruhani inkişafın
üçün internet saytımızda,

www.lio.ru

və ya

www.sns.org.ua

“İnam və Həyat” jurnalımıza abunə
olmağı tövsiyə edirəm.

Hər hansı bir sualınız varsa,
bizə bu ünvana yazın.

BAŞLANĞICDA

“Rəbb Musaya dedi:
‘Bunu xatirə olaraq
kitaba yaz...’”

Çıxış 17:14

Hələ öz ecazkar gözəlliyi və əlçatmaz ucalığı ilə bizi heyrətləndirən kainat, işıq və zaman olmayanda, Rəbb çoxsaylı mələklərlə əhatə olunanda yer üzərində yaşayacaq insanlar barədə bir qərar qəbul etdi. Qərar bu idi ki, əbədiyyətin əlçatmaz bəxtiyarlığını O, insanlarla bölüşmək istəyirdi. Bu qərarı qəbul etməyə Onu nə vadar etdi? Biz Müqəddəs Yazılardan bilirik ki, Rəbb məhəbbətdir. Məhəbbət isə öz növbəsində əlində olan hər şeyi bölüşmək istəyir.

İstənilən halda Rəbb bilirdi ki, bu Ona baha başa gələcək. Xudavənd hər şeyi görən və biləndir. Tanrı bilirdi ki, insanlar üçün arzuladığı azadlıq Ona nəyin bahasına gələcək. Lakin Özü ilə ünsiyyət yalnız azad olan biri ilə baş baş tuta bilərdi. Hələ insan dünyaya gəlməzdən qabaq, nur mələyi azadlıqdan istifadə edərək Allaha qarşı üsyan etdi. Gələcək insanlar üçün seçim fürsəti yarandı.

Başlanğıcda Rəbb gördüyümüz dünyanı gələcək insanlar üçün bir beşik kimi yaratdı.

Qalaktikaları, ulduzları, planetləri və onların peyklərini sərhədsiz kainatda yaradarkən Rəbb istəyirdi ki, insanlar ulduzlu səmaya baxıb Rəbbi dü-

şünsünlər. O, dünyanı yaradanda sənin və mənim barəmdə düşünmüşdü.

Rəbb yeri, təbiəti, bitkilər və heyvanlar aləmini yaradarkən insanlarla əbədiyyəti birgə keçirmək niyyətində idi.

Adəm və Həvvanı yaradarkən Rəbb bilirdi ki, onlara bəxş olunan həyat və azad seçimi onlar necə istifadə edəcəklər. Tanrı əlindən gələni etdi ki, onların azad seçmək huquqları olsun. Rəbb Öz əlləri ilə gözəl bağ saldı, həmin cütlüyü bu bağa yerləşdirdi və onlara ciddi bir tapşırıq verdi: "Bağın qayğısına qalın və onu qoruyun".

"Rəbb Allah bağın ortasında həyat və xeyirlə şəri bilmə ağacını bitirdi." O, xeyirlə şəri bilmə ağacının bəhrəsindən yeməyi insana qadağan etdi, yəni Rəbb insana seçim verdi.

Axı niyə Rəbb bunu etdi? Həmin ağac olmasa idi, biz indi cənnətdə yaşayırdıq! Mən bilmirəm… Lakin onu bilirəm ki, balaca körpənin günahsızlığı ilə yaşa dolmuş insanın müqəddəsliyi arasında fərq var. Rəbb insana azad iradə verdi ki, insan sınaqdan keçirilsin və günahsızlıq sınaqdan keçirildikdən sonra müqəddəsliyə çevrilir. Rəbb müqəddəsləri əbədi olaraq yanında görmək istəyir, çünki Tanrı Özü müqəddəsdir.

Allahın insana seçim azadlığı verməsi ən açıq şəkildə Eden bağında, Həvvanın hekayəsində nümayiş etdirilir. Rəbb bizim uşaqlarımıza dediyimiz kimi Həvvanın əlindən tutub demədi: "Olmaz! Məgər Mən sənə demədim ki, bu meyvəni yeyə bilməzsən?!" Bu azadlığın Tanrıya baha başa gələcəyini bilsə də, Rəbb insanın azad iradəsinə çox hörmət etdi. "Bizə Məsihdə səmadakı hər cür ruhani nemətlər verən Allaha — Rəbbimiz İsa Məsihin Atasına alqış olsun! O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq" (Efeslilərə 1:3-4). Dünya yaranmazdan öncə Allah Oğlu bilirdi ki, bizim azadlığımız üçün Onun üzünə tüpürəcəklər, döyəcəklər və O rüsvay olub çarmıxda asılacaq.

Günaha batmış insanları Allah Eden bağından kənarlaşdırdı və oranın girəcəyinə odlu qılıncı olan mələklərini qoydu ki, bağı mühafizə etsinlər.

Rəbb "zaman" anlayışını ona görə yaratmışdı ki, insanlar günah içində qalmasınlar. Əksinə zamanın təsiri altına düşmələrinə görə ("ölümlə öləcəksən") Məsih vasitəsilə satin alınıb əbədi həyata malik olsunlar. Bununla bağlı Kəlam belə deyir: "Biz iman etmişlərsə rahatlıq diyarına (yəni - yaradılışın yeddinci gününə) girməkdəyik…" (İbranilərə 4:3).

Şənbə, Allahın səmavi istirahətinin yer üzündəki əksi, Onun "istirahət günü", bizə əbədiyyət üçün yaradıldığımızı, itirilmiş cənnəti, ona qayıtmaq imkanını, ödənilən dəyəri daim xatırladır. Bu seçim azadlığımız və İsa Məsihin satınalma qurbanını qəbul etməyimiz üçün idi. Bu, bizə Tanrının məqsədini — Yaradan ilə məhəbbətlə dolu ünisyyət saxlamaq tapşırığını xatırladır.

TANRI PEŞMAN OLDU

“Rəbb dedi:
‘Mənim Ruhum insanda
əbədi qalmayacaq...’”
Yaradılış 6:3

Nuhun gəmisi

Yer üzərindəki ilk insanlar Eden bağına girişi qadağan edən çoxqanadlı keruvların və dairəvi alovun qarşısında durub ona baxmağa belə cəsarət etmirdilər. Hər şey — cənnət, əbədiyyət və Rəblə ünsiyyət itdi, onlar öz seçimlərini etdilər və onların günahı ölümlə nəticələndi.

Cənnətdən qovulmaq və insanın ölümə, zamana təslim edilməsi Allahın insanlar üçün ilkin lütfü idi. Adəm və Həvva cənnətdən qovuldular ki, düşdükləri vəziyyətdə qalmasınlar və onların ümidi olsun. Allah dedi: "Budur, insan xeyirlə şərin nə olduğunu bilərək bizlərdən biri kimi oldu. Qoy indi əlini uzadaraq həyat ağacının meyvəsindən dərib yeməsin və əbədi yaşamasın!" (Yaradılış 3:22). Tanrı insanı günahına görə ölümlə cəzanlandırdı, onu əbədi belə vəziyyətdə yaşamaqdan məhrum etmək Adəmə göstərdiyi böyük mərhəmət idi. Təsəvvür edin ki, insan da şeytan və onun mələkləri kimi günah icində əbədi yaşayır.

Edendən insan özü üçün üç böyük xeyir-duanı əldə etdi. Birincisi, ailə idi ("kişi öz ata-anasını tərk edib arvadına qovuşacaq və onlar bir bədən olacaq"). İkincisi, ilk vədlər və ya gəlməli olan, şeyta-

nın düşməni olan Xilaskar haqqında peyğəmbərlik idi ("Mən sənin-lə qadın arasına, sənin balanla onun övladı arasına düşmənçilik salıram"). Üçüncüsü isə, bütün ömrü boyu azad seçim etmə hüququ və "ölümdən həyata keçmək" fürsəti idi.

Günah Edendə qalmadı, o insanların qəlbində məskən saldı. Bununla da kin, ədavət, qətl ortaya çıxdı. İnsan bununla da təbiətcə günahkar olmağa başladı. İlk insan Adəm ilk günahkar olduğu kimi, eləcə də onun oğlu ilk qatil oldu. Yaradılış kitabının dördüncü, beşinci və altıncı fəsillərində insanların Edendən qovulma səbəbləri, çox qısa və aydın şəkildə izah olunur. Hər şey ilk dəfə baş verirdi. Təkcə ilk qətl deyil, həm də ilk musiqi alətləri, ağacdan, daşdan və metaldan hazırlanmış ilk alətlər, şəhərlər, silahlar və müharibələr yarandı.

Günah sürətlə artmağa başladı. İnsan nəslinin artması da eyni sürətlə getdi. Adəmlə Həvvanın oğullarından biri olan Şetin Enoş adlı oğlu oldu, bununla da insanlar Allahın adını çağırmağa başladı. Beləcə, özünəməxsus şəkildə bir din formalaşdı. İnsanlar Allah ilə aralarındakı itmiş münasibəti axtarmağa başladılar. Amma Adəmin nəsli arasında mömin insanlar çox az idi. Şetin nəslindən olan Xanok saleh həyat yaşadı, bütün ömrünü Allaha xidmət etmək üçün həsr etdi və Rəbb Allah

onu Öz yanına götürdü. Xanok ölümü dadmadı. Digər əməlisaleh adam Nuh idi. Onun dövründə Şetin övladları (Rəbbin övladları) insan övladları ilə evlənməyə başladı (qatil Qabilin törəmələri, silah ixtiraçısı Tuval-Qayin, qəddar Lemek) və beləliklə yer üzündə əməli-saleh adam qalmadı. Rəbb dedi: "Mənim Ruhum insanda əbədi qalmayacaq (bu o deməkdir ki, Allahın oğulları insanlardır, mələklər və ya bəzilərinin inandığı kimi daha fantastik bir varlıqlar deyil), çünki onlar ancaq bədəndir. Onların ömrü yüz iyirmi il olacaq" (Yaradılış 6:3).

Rəbb insanı yaratdığına görə peşman oldu. Bu ağılasığmazdır. Amma Rəbb Öz mərhəməti ilə insanlara daha bir şans verdi. Hər kəsin gözü önündə xilas gəmisini tikən Nuh peyğəmbər vasitəsilə 120 il gəlməli olan hökm günü barədə elan etdi.

Lakin İsanın dediyi kimi, "onlar heç bu barədə fikirləşmirdilər..." Gəmidə göyərtə, arakəsmələr, pilləkənlər, heyvan yemlərinin hazırlanması, gəminin tam inşa olunub başa çatması üçün 120 il keçdi. İnsanlar isə evlənib ərə gedirdilər, evlər tikirdilər, savaşıb barışırdılar, öldürüb uşaq dünyaya gətirirdilər. Bütün bunlar Nuhun ailəsi Rəbbin əmri ilə hər növ heyvandan bir cüt, təmiz heyvandan isə yeddi cüt götürərək gəmiyə daxil ola-

na qədər baş verdi. Allah da onların arxasınca qapını bağladı.

Xilas gəmisinin bu bağlı qapısı, cənnətin bağlı qapıları önündəki keruvlar kimidir. Belə ki, "Rəbbin dəhşətli günündə" heç bir insanın xilası üçün imkan olmayacaq.

Birdən yağış yağmağa başladı. O dayanmadan yağırdı... Su bütün yer üzünü bürüdü, dırmaşmağa bir ağac və ya dağ qalmadı. Su hər şeyin üstünü örtdü! Yağış leysan kimi yağırdı, gəminin içərisində isə isti, rahat və təhlükəsizlik hökm sürürdü.

BABİL QÜLLƏSİ

“Rəbb onları oradan bütün
yer üzünə yaydı...”
Yaradılış 11:8

Günlər keçirdi, həftələr ötürdü, aylar bir-birini əvəz edirdi, amma yağış kəsmirdi ki, kəsmirdi. Qırx gün, qırx gecə fasiləsiz yağış yağdı və bütün yer üzünü su bürüdü ki, hətta dağlar suyun altında qaldı. Musa kitabında belə yazdı: "Dərinlikdə olan su qaynaqları və göylərin pəncərələri bağlandı, yağış dayandı" (Yaradılış 8:2). Adəm və Həvvanın Eden bağından qovulmasından dünyanın suya qərq olmasına qədər bir neçə minillik keçmişdi. Yer üzərində yekə gəmidən və o gəmidə xilas olan yeganə saleh insanın ailəsindən başqa heç nə qalmadı.

Güclü bir səslə gəmi Ağrı dağında dayandı. Lakin xilas gəmisinə hələ də iri dalğalar çırpılırdı. Nuh və onun ailəsi gəmini bir neçə ay sonra tərk edə bildi. Göyərçin zeytun ağacının budağını dimdiyində gəmiyə gətirdi. Bununla yer üzünün quruduğunu, Nuhun ailəsinin tezliklə gəmini tərk edə biləcəyini anladılar və göyərçin sülh rəmzinə çevrildi.

Nuh və arvadı, oğuları — Sam, Ham və Yafəs və onların həyat yoldaşları yeni bəşəriyyətin və sivilizasiyanın təməlini qoydu. Heyvanlar da gəmidən çıxıb dağdan dərələrə enərək, planetimizdə yeni faunanın təməlini qoydu.

Daşqın bütün yer üzünü dəyişdirən dəhşətli bir fəlakət idi. İndi gördüklərimiz, heyran qaldıqlarımız və gözümüzü oxşayan yer kürəsinin keçmiş böyüklüyünün bir parçasıdır. Əhəngdaşı dağları qədim flora və faunanın tələf olmasından yaranmış və onların qalıqları dəhşətli təzyiqlə sıxılmışdı. Qalın çöküntü təbəqələri qədim dünyanın müxtəlifliyinə və inanılmaz sərvətə mənsub olduğunu sübut edir. Bu gün maşınlarımız, zavodlarımız, istilik elektrik stansiyalarımız qədim biosferin qalıqları olan neft və qazla işləyir. İnsanlar məndən qədim insanların başına nə gəldiyini soruşduqda, maşınlarımızı nə ilə işlətdiyimiz və evimizi nə ilə qızdırdığımız barədə düşünürəm. Bir çox elm sahələri yer kürəsinin keçmişi, əcdadlarımızın məskəni barədə öyrənməklə məşğuldur.

Hər şey — təbiət, iqlim, havanın tərkibi və bizi əhatə edən bütün dünya dəyişdi. Nuh və oğulları hər şeyi yenidən öyrənməli oldular.

Hər şey dəyişdi, amma insanın ürəyi dəyişmədi. Allah dünyanın yeni əhalisinin əcdadları ilə bağladığı əhdin əlaməti olaraq səmada gözəl göy qurşağı yaratdı. Nuhun oğlu Ham artıq atasını rüsvay etmişdi, ata da buna görə nəvəsini lənətləmişdi.

Həyat qaydaları, Allahın yeni bəşəriyyətlə bağladığı əhdin şərtləri o dövrdə çox sadə idi. Rəbb bü-

tün heyvanlar aləmini insana tabe etdi və onu qida ilə təmin etdi. Ona qan yeməyi və başqa insanlara pislik etməyi qadağan etdi və əmr verdi ki, can üçün can qurban veriləcək.

Bir az vaxt keçdi və indi Yaxın Şərq dediyimiz yerdə Nuhun oğulları və nəvələri məskunlaşdı. Onlardan biri — Hamın nəvəsi Nəmrud gücü və ovçuluq məharəti ilə seçilirdi. O, Mesopotamiya torpaqlarında ilk padşahlığı qurdu.

Beləliklə, bütün bu insanlar Şərqə köçdü və Şinar vadisində məskunlaşdılar. Bir-birlərindən getdikcə daha da uzaqlaşdıqları üçün ünsiyyət saxlamaq tədricən çətinləşdi.

İnsanlara bir fikir gəldi gəldi. Onlar adlarını əbədiləşdirmək üçün bir abidə inşa etməyi qərara aldılar. Beləcə, onlar hündürlüyü səmaya çatacaq qədər, Allaha çatacaq qədər bir qüllə tikmək qərarına gəldilər. Eden bağındakı sınaq çoxsaylı insanların qəlbini sınağa çəkdi: allahlar kimi olacaqsınız…

Onların daş kəsmək üçün avadanlıqları yox idi və onlar hörgü hörmək qabiliyyətini də itirmişdilər. Beləliklə, insanlar qərara aldılar ki, kərpici gildən hazırlayıb onu sobada bişirsinlər və… beləcə, xalq inşaat işinə başladı.

Allah çox gözləmədi. İnsanların cəsarətli arzularının həyata keçmədiyini göstərən qalıqlar uzun

əsrlər səyahətçiləri maraqlandırdı. Allah insanların dilini qarışdırdı və onlar inşaatı dayandırdılar.

Həm qüllənin, həm də şəhərin tikintisi dayandırıldı və bu şəhər Babil adlandırıldı. Çünki Rəbb bütün insanların dillərini qarışdırdı və onlar başqa heç bir mövzuda razılığa gələ bilmədilər.

Dəyişilmiş yer səthinin şərtlərinin təsiri ilə, qitələrarası sürüşmələr başladı: "çünki onun (Peleqin, Everin oğlu, Samın ulu nəvəsi, Nuhun övladı) dövründə yer üzü bölündü" (Yaradılış 10:25). Nuhun nəsli yer üzünün hər tərəfində məskunlaşdı. Babildən Qrenlandiyaya, Misirdən Avstraliyaya qədər və qayıqları ilə çata bildikləri bütün adalarda məskunlaşdılar.

Ağrı dağlarında gəmi qalın qar təbəqəsi ilə örtülmüşdü, Babil qülləsi ətrafdakı tayfalara tikinti materialları mənbəyi kimi xidmət etməyə başlad. Qüllədən bir az cənubda, gözəl Ur şəhərində, Terahın (Naxorun oğlu, Seruqun oğlu, Peleq oğlu — o doğulanda yer parçalandı) oğlu İbram dünyaya gəldi. İbram yetkinlik yaşına çatanda Allah Adəm, Xanok, Nuhla danışdığı kimi onunla danışmaq qərarına gəldi… Bu, Allahın xilas planından növbəti hekayədir.

ƏCDADLAR DÖVRÜ

“Müqəddəs Yazı nə deyir?
‘İbrahim Allaha iman etdi və
bu ona salehlik sayıldı.’”

Romalılara 4:3

Bəşəriyyətin məhvinin qarşısını almaq üçün Rəbbin Nuhu və onun ailəsini seçməsində qeyri-adi bir şey yox idi: o dünyadakı yeganə saleh adam idi. Bununla belə, qədim xaldeylilərin Ur şəhərində yaşayan İbrama Allahın xüsusi lütfünün nədən ibarət olduğunu tam bilmirik. Biz onu bilirik ki, Rəbb İbrama bütün rahatlığı olan doğma şəhərini (o zamanlar Urda artıq su xətti, kanalizasiya və çoxmərtəbəli evlər var idi), qohumlarını tərk edib ona yad olan torpaqlara getməyi əmr etdi.

Allah İbramı çağıranda daşqının bitməsindən on əsr keçmişdi, yəni Rusinin vəftiz günlərindən hesabladığımız illərin sayı ilə təxminən eynidir. Zaman keçdi və nəsillər bir-birini əvəzlədi. Həmin dövrdə insanların bu günə nisbətdə ömrü daha uzun idi. Daşqından əvvəlki dövrə aid xatirələr Babil dövründəki səpələnmədən sonra əfsanələr, müxətlif xalqların mif və dini təsvirləri ilə silinirdi.

İbramın atası bütpərəst idi. O, oğlu və nəvəsi Lut ilə birlikdə köçdüyü Xarranda dünyasını dəyişdi. İbramda imanın necə yarandığına dair çoxlu əfsanələr olsa da, bizdə sübutlu məlumat yoxdur. İmanlıların atası olan İbrahimin şəxsiyyə-

ti barədə sirlər sadəcə məsihçilikdə deyil, digər iki dində, yəhudilik və islamda da qeyd olunub. Onun barədə bilməli olduğumuz hər şey Müqəddəs Kitabın səhifələrində yazılıb. Kəlam bizə İbrahimi Allaha tam həsr olunmuş, Tanrının Özünü ona zühur etdiyi və saysız bir nəslin başlanğıcı olmuş şəxs kim təqdim edir.

Qədim dövrlərin tarixçiləri İbrahim haqqında onun ətrafdakılara böyük təsiri olan bir şəxsiyyət kimi yazırdılar. Onun misirlilərə riyaziyyatın əsaslarını öyrətdiyini, finikiyalılara astronomiyanın sirlərini açdığını və bir çox başqa elmləri öyrətdiyini iddia edirdilər. Lakin Kəlam diqqətimizi İbrahimin Tanrıya iman etdiyinə və bunun onun üçün salehlik sayıldığına yönəldir. İbrahim öz nəslinə və bizə göstərdi ki, tək Allah hər bir insanı Ona ibadət etməyə çağırır və Tanrıya həqiqi ibadət ayinlərlə deyil, imanla müəyyən edilir.

İbrahim Kənana çağırıldıqdan və köçdükdən sonra uzun illər ona vəd olunan oğlunu gözlədi. O, sürülərini otarıb gözləyirdi… gözləyirdi və Rəbbə inanırdı. O, övladsız qoca olduğu üçün qurbangahlar tikdi və öz nəsli vasitəsilə yer üzünün bütün millətlərinə xeyir-dua verəcəyini vəd edən Rəbbinə ibadət etdi. İbrahim Allaha mənsubluğun əlaməti olaraq bütün ailəsindəki kişiləri sünnət

etdi və bununla da yəhudi xalqının formalaşmasının başlanğıcını qoydu.

Həmin günlərdə bütün yer üzündə müxtəlif möhtəşəm hadisələr baş verdi: İbrahimin vətəni Urda o dövrün ən böyük məbəd kompleksi — Ay tanrısının şərəfinə Ziqqurat tikildi; firon Amenhotepin qoşunları Nubiya və Sina yarımadasını fəth etdi və misirlilər orada neft və qətran çıxarmağa başladılar.

Bununla belə, Müqəddəs Kəlam İbrahimin hekayəsinə, bir ailənin hekayəsinə xüsusi diqqət yetirir. İbrahim qocalsa da, (o zaman onun yüz yaşı var idi) iman ilə Allahın ona vəd etdiyi çoxdan gözlənilən oğlu İshaqı qəbul etdi. İshaq da atasının yolu ilə getdi, göyləri və yeri yaradan Allaha iman etdi. İshaqın imanı Allaha xoş gəldi və Tanrı Özünü "İbrahimin və İshaqın Allahı" adlandırdı.

İshaqın əkizləri dünyaya gəldi: Esav və Yaqub. Böyük oğlu Esav İbrahimin bütün imanlı nəsli üçün bir dərs oldu və bizi belə səhvlər etməməkdə xəbərdar etdi: o, ilk oğulluq haqqını mərcimək şorbası üçün satdı və bununla da özünü həm bütün dünya, həm də bir insan üçün Allahın xilas tarixində iştirakdan məhrum etdi. İshaqın kiçik oğlu Yaqub Rəbbin mələyi ilə döyüşdə yeni İsrail adını və Allahın xeyir-duasını aldı. O, Allahın xalqının sonuncu böyük əcdadı oldu.

Diqqət yetirin, Allah Musanı xidmətə çağıranda Özünü belə təqdim etdi: “Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam” (Çıxış 3:6).

Bizim barəmizdə isə İsa dedi: “Sizə deyirəm ki, şərqdən və qərbdən bir çoxu gələcək və Səmavi Padşahlıqda İbrahimlə, İshaqla və Yaqubla bir süfrəyə oturacaq” (Matta 8:11).

DAĞDA NUR

“Elə isə indi aranızda
olan yad allahları atın,
ürəyinizi İsrailin Allahı
Rəbbə meyl etdirin.”

Yeşua 24:23

Misirlilər oraya köçmüş kiçik köçəri qəbiləsinin orada uzun müddət qalacağını təsəvvür edə bilməzdi. Allah elə etdi ki, Yaqubun oğullarından biri olan Yusifi qardaşları Misirdə köləliyə satdılar. Orada Allah Yusifi fironun naibi, Misirdə ikinci ən güclü adam etdi. Yusifin dəvəti ilə onun bütün ailəsi Nil deltasında, dərin çayın suvardığı münbit vadiyə köçdü. İndi Misirin paytaxtı Qahirə orada yerləşir.

Bütün ömrünü çadırlarda keçirən köçərilər üçün insanı heyrətə gətirən əzəmətli məbədlər, çayın o tayında uzanan piramidalar, sfenkslər başqa dünyanın elçiləri kimi görünürdü. Yerli əhalinin israillilərə münasibəti bir qədər nifrətli olsa da (bütün çobanlara olduğu kimi), lakin onlar Yusifin qohumlarına münasibətdə mehriban və təvazökar idi.

Lakin illər keçdi — Yusif öldü, başqa bir firon hakimiyyətə gəldi. Yəhudiləri və ya israilliləri, o dövrdə Yaqub-İsrail nəsli çağırmağa başladılar. Onlar çox çətin bir vəziyyətdə yaşayırdılar: artıq sürülərini Misir otlaqlarında sərbəst otara bilmirdilər — hər şey üçün pul ödəməli oldular… Yəhudi xalqı qədim sivilizasiyanın mərkəzi olan Misirin

quldarlıq əsarətinə və qəddar hakimiyyətinə məruz qaldı. Bu əsarət 400 il davam etdi.

İsrail xalqı əzablara və məcburi əməyə baxmayaraq, törəyib çoxaldı və gücləndi. Qadınlar dözümlü və güclü, uşaqlar da çoxlu və sağlam idi. Sonra firon yəhudilərdən doğulan oğlanların hamısını çayda boğmağı əmr etdi. Eyni aqibət Amram və Yokevedin oğlu olan yeni doğulmuş Musanı da gözləyirdi. Lakin Allah onun həyatını xilas etdi və yəhudilərin ən qatı düşməni olan fironun evində yaşayıb böyüdü.

Qırx il sonra Musa Misirdən qaçmağa məcbur oldu. O, Midyan torpağında çobanlıq etdi. Burada o, Midyan kahini Yetronun qızı Sippora ilə evləndi. Qırx il səhrada qoyun otardı. Sina dağının yaxınlığında, Allah Musaya yanan bir kolda Özünü göstərdi və onu İsrail xalqının başçısı olmağa çağırdı. Burada Allah ilk olaraq Musaya Yahve, yəni Var Olan adı ilə Özünü göstərdi. Musa Allaha itaət etdi və Onun peyğəmbəri oldu.

Misirə qayıtdıqdan sonra Musa İsrailin Allahı — İbrahimin, İshaqın və Yaqubun Allahı adından xalqı azad etməyi tələb etdi. Firon (çox güman ki, bu firon III Tutmos idi) qəzəbləndi, qulların və çobanların Allahı haqqında heç nə eşitmək istəmədi. Firon xalqı azad etməyə razılıq verməzdən əvvəl misirlilərin başına on bəla gəldi. Axırıncı bəlada,

ilk doğulanların məhvi zamanı Allah Öz xalqını həlak olmaqdan xilas etdi. Onlara əmr etdi ki, qapı dirəklərini və yanlarını quzu qanı ilə məsh edib işarələsinlər.

O vaxtdan bəri yəhudilər Pasxa bayramını və ya arami dilində hərfi mənada "keçmək" mənasını verən Pasxa bayramını qeyd edirlər. Bu söz Pasxa qurbanı ilə əlaqələndirilir və Haqq-Taalanın vədini xatırladır: "Qanı görəndə yan keçəcəyəm… sizə məhvedici bəla gəlməyəcək" (Çıxış 12:13). Əhdi-Ətiqdəki Pasxa quzusu günahlarımız uğrunda gələcəkdə olacaq Məsih İsanın qurbanı vasitəsilə bəşəriyyətin xilasının rəmzidir.

İki yerə bölünmüş dənizin ortasında quru yol ilə getmək, səhrada dəhşətli ölümdən qurtulmaq, qayadan suyun gəlməsi, göydən tökülən manna və qırx il müddətində səyahəti — çıxışda baş verən hadisələri Rəbb öncədən planlaşdırmışdı və yerinə yetirdi ki, biz Məsih İsada satınalınmamızın rəmzlərini və nümunələrini görə bilək.

Xalq Sina dağına çatdıqdan sonra Musa Allahla şəxsi görüş üçün dağın zirvəsinə qalxdı.

Burada Allah Öz xalqı ilə əhd bağladı, onlara On Əmri verdi və bu əmrlər vasitəsilə dini, ictimai həyatı təşkil etdi. O, eləcə də qaydalar, ayinlər, bayramlar və qurbanlar təqvimini yəhudilərə bildirdi.

Dağda Musa Allahın əlindən qanunun yazıldığı daşları alarkən, insanlar dağın ətəyində bəlli olan, əlçatan, toxunula bilən və öyrəşdikləri bir tanrının — Harunun əlləri ilə hazırlanmış bir bütün ətrafında rəqs edirdilər.

Musanın varisi və xidmətçisi olan Nun oğlu Yeşuanın İsrail xalqını vəd olunmuş topraqlara aparması üçün qırx il keçməli idi. Bu uzun illər ərzində düşərgənin ortasında, çadırın üzərində daim bir nur saçırdı, gecə vaxtı göydən manna yerə tökülürdü, Misirdən çıxmış ibranilərin paltarları və ayaqqabıları da köhnəlmirdi. Onların Misirdən çıxması bir neçə gün çəkdi, lakin keçmiş qulların qəlbindən Misirin çıxması qırx il vaxt apardı.

Rəbb əcdadlar — ulu atalar (patriarxlar) olan İbrahimə, İshaqa və Yaquba verdiyi vədi yerinə yetirdi: onlara "süd və bal axan" torpaqları miras olaraq verdi.

ÇƏTİNLİKLƏ DOLU MİNİLLİK

“Hərə öz gözündə doğru
görünən işi edirdi.”
Hakimlər 21:25

Apollon məbədinin xarabalıqları

Delfidə taxtadan tikilmiş Apollonun məbədi sındırılaraq daşdan inşa edilmişdi. Hetlər Misirə qarşı müharibəyə başladılar. Çində qədim padşahlıqlar arasında müharibə müxtəlif dərəcədə müvəffəqiyyətlə davam edirdi. Mikenadan inşaat sədası gəlir. Lakin bütün bu hadisələr, digər baş verənlərlə birlikdə sadəcə Allahın bəşəriyyəti xilas etməsi üçün yerinə yetirdiyi əsas planın arxasındakı fon idi. Kənan torpağında bir İsrail dövləti peydə oldu. Onun paytaxtı — çadır məbədi olan kiçik bir kənd — çoxtayfalı insanların ruhani və inzibati mərkəzi idi.

Musanın rəhbərliyi altında İsrail xalqı Misirdən çıxdı, Sina dağında qanun aldı, qul həyatına alışmış, üsyankar və imansızların hamısı ölənə qədər xalq qırx il səhrada dolaşdı. Musanın varisi Nun oğlu Yeşua böyük bir xalqı möhkəmləndirilmiş şəhərləri, taxıl tarlaları və sıx meşələri olan "süd və bal axan" ölkəyə apardı.

Lakin bir-birindən fərqli tayfalardan (Müqəddəs Kitab dili ilə desək qəbilələrdən) bir xalq yaranana qədər uzun əsrlər keçdi. Onların birləşməsinə İsraili əhatə edən və tez-tez hələ də zəif olan dövlətə

hücum edən çoxsaylı düşmənlər kömək edirdi. Allah xalqa yenidən azadlıq və tarixi baxımdan kiçik bir sülh və firavanlıq dövrü gətirən hakimlər verdi. Lakin, bütün bu müddət ərzində İsrailin əsas düşməni bütpərəstlik və geniş yayılmış xurafatlar idi. Xalq gah Allaha olan imana geri dönürdü, gah da yenindən bütpərəstliyə qayıdırdı.

Beləliklə, İsrail teokratik dövlətdən monarxiyaya çevrildi: xalq "digər xalqlar kimi" padşahın olmasını istəyirdi. Sərhədsiz güc, sərvət və düşmənlər üzərində qələbələr ilk padşahın başını gicəlləndirdi. Hətta o, sağlığında özünə abidə ucaltmışdı. Həqiqətən də, Süleymanın dediyi kimi, günəşin altında yeni bir şey yoxdur. Allah onu rədd etdi və Davudu padşah seçdi. Onun nəğmələri, məzmurları və peyğəmbərlikləri üç min ildən sonra bu gün də şairləri, bəstəkarları və vəz edənləri ruhlandırır.

Davuddan sonrakı min il ərzində Allahın xalqı çoxlu sarsıntılar yaşadı. Yalnız Babil əsarəti israilliləri bütpərəstlikdən əbədi olaraq xilas etdi. İmperiyalar yarandı və yox oldu: Assuriya, Babil, Midiya-Fars, Makedoniya... Romalılar Yaxın Şərqdə öz nizam-intizamlarını qurdu, rəqiblərini özlərinə tabe etdirdilər.

İmperiyanın hər yerində yollar çəkildi, nəhəng dövlətin hissələri arasında əlaqələr quruldu, hamı üçün ümumi qanunlar tətbiq edildi…

Zamanın tamlığı gəldi. Allah Xilaskarını dünyaya göndərdi. O, Misirdə, Romada, Afinada deyil, despotik padşah Hirodun dövründə romalıların diqqətli nəzarəti və idarəçiliyində olan problemli Yəhudeya əyalətindəki kiçik, çirkli bir şəhərdə doğuldu. Bet-Lexem. Çəmənlik. Çobanlar.

Ətrafımıza dərhal parlaq və sevincli bir ətir yayıldı. Ümid nəfəsi — Davud Oğlu!

Bet-Lexem

ZAMANIN TAMLIĞI

“Kəlam bəşər olub,
lütf və həqiqətlə dolu
olaraq aramızda
məskən saldı...”

Yəhya 1:14

Azov əyalətində və Qafqazda müasir osetinlərin əcdadları alanlar məskən salır; Çində Xun padşahlığı şimal və cənub hissələri olmaqla iki yerə bölünür; Peruda o dövrə nisbətdə yüksək inkişaf etmiş kənd təsərrüfatı yaranır; Roma imperiyası bütün Şimali Afrikanı, Şərqi Aralıq dənizini və Kiçik Asiyanı əhatə edən İngiltərə və Şimali Almaniyaya qədər uzanır. Eyni qanunlar bütün imperiyada tətbiq olunur və əyalətlər paytaxtla asfaltlanmış yollar şəbəkəsi ilə birləşir. Tarixdə ilk dəfə olaraq Romanın bir milyondan çox əhalisi var... Lakin bütün bunlar möcüzə baş verərkən arxa fonda olan tarixi hadisələrdir: Zaman və məkandan kənar olan Tanrı, əbədiyyəti qoyub Öz yaratdığı kainata daxil olur və insan olur.

Rəbb dünyanı yaradanda bilirdi ki, Onu nələr gözləyir. Bilirdi ki, Tanrı vasitəsilə yaranan insan Onun iradəsindən üz döndərəcək və Onun kimi olmağa cəhd edəcək. Allah bilirdi ki, ilkin məqsədinə çatmaq Ona nəyə başa gələcək. Tanrı Öz dünyasında yaşayan insanlarla ünsiyyət qurmaq üçün hansı bədəlləri ödəməli olduğunu yaxşı anlayırdı: Rəbb bədəndə məhdudiyyətli həyat, zaman,

məkan, alçaldılma, əzab, çarmıx və hətta ölümlə qarşılaşacaqdı.

O, uşaq ikən Nazaretin tozlu küçələrində qaçacaqdı, sərt döşəkdə yatacaqdı, dülgər kimi cüzi yeməklə qidalanacaqdı, əlləri ilə işləyib və rədd edilmişlərlə ünsiyyət quracaqdı.

On iki yaşlı İsa Özünün əbədi varlığını və Yaradan Ata ilə birliyini tam dərk edərək bir gün Öz anasına cavab verdi: "Məni nə üçün axtarırdınız? Məgər bilmirdiniz ki, Mən Atamın evində olmalıyam?" (Luka 2:49)

İsa Vəftizçi adlanan qohumu Yəhya tərəfindən vəftiz olunacaqdı. O Öz Padşahlığını yaymaqla xidmətə başlayacaqdı. Rəbb hər sözdə, addımda və əməldə peyğəmbərlərin Müqəddəs Yazılarda yazdıqlarını yerinə yetirəcəkdi. Axı, yüz illər əvvəl Tanrı Özü peyğəmbərlərini bunu yazmağa ruhlandırmışdı, çünki O, nə etmək istədiyini bilirdi.

Məsih yüzlərlə peyğəmbərliyi Öz vasitəsilə yerinə yetirdi ki, bütün dünya görsün: Allah cismani olaraq zühur etdi! O, "lütf və həqiqətlə dolu" sülh içində yaşadı. İsa Öz sözü ilə tufanı sakitləşdirərək, təbiətin Rəbbi kimi Özünü göstərdi. Rəbb Özünü ruhani aləm üzərində qüdrət sahibi kimi göstərdi, cinlərdən əzab çəkənlərə azad etdi və cinlər də Ona itaət etdilər. Tanrı Özünü həyat və

ölüm üzərində Rəbb kimi göstərdi, ölülərə məzardan çıxmağı, iflic olanlara ayağa qalxıb yeriməyi, cüzamlıya təmizlənməyi və anadangəlmə kor olana görməyi əmr etdi.

Məsihin yer üzündəki həyatı dərin məna daşıyır. Onun Ruhu həvari vasitəsilə danışır: "Bu səbəbdən bu övladlar tərkibcə qan və ətdən yarandıqlarına görə İsa Özü də onların insan təbiətinə şərik oldu ki, ölüm üzərində hakimiyyət sahibi olanı, yəni iblisi Öz ölümü vasitəsilə təsirsiz hala gətirsin" (İbranilərə 2:14-15).

İsa Nikodimə dedi: "İnsan yenidən doğulmadan Allahın Padşahlığını görə bilməz. İnsan ona girə bilməz. İnsan oranın vətəndaşı ola bilməz" (Yəhya 3). Yenidən doğulmaq yalnız ona görə mümkündür ki, Rəbb bizim kimi bir İnsan oldu, Allahdan doğuldu ki, biz də Onun çarmıxda etdiyi kəffarəyə imanla Ondan doğula bilək. İsa Məsihə iman etməklə biz Səmavi Padşahlığın sakinləri, Allahın təbiətinin iştirakçıları oluruq və Allahın sülhünə, əbədiyyətə, həqiqi Şənbə gününə daxil oluruq (İbranilərə 4:3 və s.). Məsih ilk olaraq bizim uğrumuzda səmavi çadıra daxil oldu (İbranilərə 6:20).

Rəbb Özündən sonra on iki şagirdini geridə qoydu ki, sadə, savadsız, kitabsız olan həvarilər Kilsənin təməlini qoysunlar.

DİRİLMƏYƏ ŞAHİD OLANLARIN ZAMANI

“Amma Müqəddəs Ruh üzərinizə
enəndə siz qüdrət alacaqsınız və Yerusəlimdə,
bütün Yəhudeya və Samariyada, həmçinin yer
üzünün qurtaracağınadək hər yerdə Mənim
şahidlərim olacaqsınız.”

Həvarilərin İşləri 1:8

Məsihin anadan olmasının təxminən 30-cu ili, həftənin ilk günü idi. Yerusəlimdə Əllinci Gün bayramının səhəri idi. Yəhudilərin Şavuot bayramına şəhərdə bir milyona yaxın insan toplaşmışdı. Zəvvarların təqdim üçün qazanclarının onda bir hissəsini, hədiyyələrini, qurbanlarını və məbəd vergilərini gətirdikləri məbədin ətrafında güclü səs-küy var idi. Babil. Yəhudilər və yəhdiliyi qəbul edən şəxslər. Buraya müxtəlif ölkələrdən gəlmişdilər: Avropa, Asiya və Afrika. Onlar müxtəlif dillərdə danışırdılar. Məbədin ehtiyacları üçün pul şekelə dəyişdirilməli idi…

Yay. İsti. Toz. Qoyunların mələşməsi. Tacirlərin və sövdələşmə edənlərin səsləri məbədin həyətində nəğmələr, məzmurlar və dualarla qarışırdı. Keşikçilər diqqətlə fikir verirdilər ki, sünnətsizlərin heç biri yalnız yəhudilər üçün ayrılmış ziyarətgahın içərisinə girməsin.

Küçələrdən birinə çoxdilli və müxtəlif rəngli dəriləri olan bir izdiham toplandı. İnsanları göydən gələn səs-küy cəlb edirdi. İbadət edənlərin başı üstündə alov dillərinə parçalandı. Vəz edənlər qalileyli balıqçılar, çarmıxa çəkilmiş Nazaretli ravinin şagirdləridir. Babil lənətinin sona çatmasının əlaməti:

toplananlar deyilənləri başa düşdülər. Hər kəs öz dilində danışırdı. Yeni dövrün başlanğıcı: kilsənin başlanğıcı dövrü idi. Bu bayram onun ad günüdür.

Rəbb bəşəriyyətin xilası üçün planının əsas mərhələsinə Yerusəlimdə kiçik bir otaqda qədəm qoydu. Şavuotda, Sina dağında Tövratın verilməsi bayramında, kahinlər Rəbbə təqdim etmək üçün məbədə mayalı çörək gətirəndə, Allah Öz kilsəsinin əsasını qoydu: O, bütün iman gətirənlərə Müqəddəs Ruhunu verdi. Tanrı iman edənləri Öz varlığının bir parçası, övladları və elçiləri, elçiləri etdi. İmanlıları Öz dirilməsinə şahidlər etdi.

İlk vəz. Rəbbi inkar etmiş, tövbə etmiş, qəbul edilmiş və göndərilmiş — Peter vəz etdi.

Dinləyənlərin qəlbi titrəyirdi: "Bəs biz nə edək?" Bütün zamanlar üçün yüksək səslə cavab səslənir: "Tövbə edin! Günahlarınızın bağışlanması İsa Məsihin adı naminə vəftiz olun — onda Müqəddəs Ruhu ənam olaraq alacaqsınız". Yerusəlimdə, Samariya və dünyanın hər bir küncünə qədər insanlar tövbə etdilər və vəftiz oldular. Dünyanın fərqli dinlərinin qarışığından əlavə gözəl, güclü, həyat kimi ecazkar Kilsə böyüməyə başladı. Kilsə üzvlərini "müqəddəslər", yəni seçilmişlər, Rəbb tərəfindən təqdis olunmuşlar adlandırdılar. Onlar Tanrının yolu ilə getdilər, Onun davamçıları oldular.

Romada gözəllər əvvəlcə şüşədən hazırlanmış güzgüdən istifadə etməyə başladılar. İlk metal zəncirli asma körpü Çində tikildi. Vahid Çin dövləti bütün düşmənlərini məğlub edib Xəzər dənizinə qədər uzandı. Roma imperatoru Klavdi bir milyon əhalisi olan bir şəhərdə yaşadı…

Məsihin həvariləri "Yerusəlimdən, dünyanın bütün uclarına qədər" getdilər. Allahın əzəldən planlaşdırdığı gəlişinin və bütün bəşəriyyətin günahı üçün Öz Oğlu İsa Məsihin qurban getməsi xəbərini car çəkmək üçün getdilər. "Allah cəhalət zamanlarında buna göz yumdu, amma indi hər yerdə hamının tövbə etməsini insanlara əmr edir. Çünki Allah Öz seçdiyi Şəxs vasitəsilə dünyanı ədalətlə mühakimə edəcəyi günü təyin edib. Onu ölülər arasından diriltməklə hamının qarşısında bunu təsdiq edib" (Həvarilərin İşləri 17:30-31). Beləliklə, insanlar Asiya, Avropa və Afrikada tövbə etdilər.

Dirilmənin şahidləri gördüklərini və eşitdiklərini yazmağa başladılar. Onlar öz şəhadətlərini müjdələrdə və məktublarda qeyd etdilər. Bu şəhadət üçün onlar canlarını fəda etdilər. Bəziləri çarmıxa çəkildi. Digərlərinin başları kəsildi. Birinci əsrin sonunda dirilməyə birbaşa şahid olanlardan sağ qalan sonuncu həvari yeddi kilsəyə göndərdiyi məktubda bu sözlərdən sonra nöqtə qoydu:

“Bunlara şəhadət edən deyir: ‘Bəli, tezliklə gəlirəm!’ Amin. Gəl, ya Rəbb İsa! Rəbb İsanın lütfü hamıya yar olsun! Amin!” (Vəhy 22:20-21). O zaman Tanrı öz Müqəddəs Kəlamını verərək kilsə və dünya üçün Öz Vəhyini tamamladı.

Məbəd yandırılıb dağıdıldı. Ən müqəddəs yer talan edildi. Yazılmış peyğəmbərlik yerinə yetdi: “Baxın, eviniz viran qalır”, Yerusəlim isə — “Başqa millətlərin vaxtı tamam olanadək Yerusəlim başqa millətlərin ayağı altında tapdalanacaq” (Luka 13:35; 21:24). Daş daş üstündə qalmadı, şəhəri şumladılar və şəhəri duzladılar. “…çünki Allahın sənə yaxınlaşdığı zamanı anlamadın” (Luka 19:44).

Məsihin sonuncu həvarisi Yəhyanın ölümü ilə Rəbbin dirilməsinə şahidlik müddəti başa çatdı. Lakin Paulun sözlərinə görə, hamımız inanırıq, çünki “Onun böyük qüvvəsinin fəaliyyətinə görə iman edən bizlərə sərf etdiyi qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu görəsiniz. Allah bu qüdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından dirildib səmada Öz sağında oturtdu” (Efeslilərə 1:19-20).

Dirilmənin gücü Tanrının kilsəsinin gücüdür. O, bu güclə yaşayır. Bununla təchiz olunaraq kilsə Allahın Padşahlığı uğrunda bütün yer üzündə insanların qəlbini fəth edir.

GÖYLƏRDƏ ADLARI QEYD EDİLMİŞLƏR

“Lakin siz Sion dağına, var olan Allahın şəhərinə — səmavi Yerusəlimə, saysız-hesabsız mələklərə, göylərdə adları qeyd edilmiş ilk doğulanların ümumi məclisinə və cəmiyyətinə, hamının Hakimi olan Allaha, kamala çatmış salehlərin ruhlarına,...”

İbranilərə 12:22-23

Roma, Karfagen, İsgəndəriyyə və Smirna arenalarındakı qum, bütlərə sitayiş etməkdən, imperatorlara hörmət etməkdən və "qaranlığın səmərəsiz əməllərinə" (Efeslilərə 5:11) xidmət etməkdən imtina edən məsihçi şəhidlərinin qanına bulaşmışdı. Lakin Tertullianın sözlərinə görə (təxminən 160-220-ci ildən sonra) "siz bizi nə qədər məhv etsəniz, bir o qədər çoxalırıq; şəhidlərin qanı məsihçiliyin toxumudur" (Tertullianın "Apologetika" ilahiyyatçılıq əsərindən).

Birinci yüzillikdə İsa Məsihin ilk kilsəsi məhz həmin kilsənin Banisinin dediyi kimi "Səmavi Padşahlıq xəmir mayasına bənzəyir. Qadın onu götürüb üç kisə* una qarışdırıb bütün xəmir acıyanadək saxlayır" (Matta 13:33) böyüyürdü. Təqiblərə baxmayaraq, qədim dünyanın bütün ölkələrində kilsələr meydana çıxdı və böyüdü. İsanın davamçıları həvarilərin əlindən Müjdə estafetini alaraq "yer üzünün qurtaracağınadək" (Həvarilərin İşləri 1:8), o dövrdə tanınan bütün ölkələrə apardılar.

Belə söylənilir ki, Tomas Müjdəni Hindistana, Andrey Dnepr sahillərinə, Tadday və Bartalmay — Qafqaz Albaniyasına (indiki Azərbaycan olan tor-

paqlara) gətirib çıxarmışdılar. Biz bilirik ki, müjdəçilər hər vəchlə Müjdəni yer üzünün ən ucqar ərazilərinə qədər çatdırmışdılar.

Əsrlər boyu yer üzündə həyat ağacı — Allahın Padşahlığı böyüdü. 313-cü ildə Alban hökmdarı Urnayr məsihçiliyi dövlət dini elan etdi. 313-cü ildə imperator Konstantin bütün Roma imperiyasında məsihçiliyi dövlət dini elan etdi. 965-ci ildə vikinq kralı Harald şimal xalqları arasında məsihçiliyin əsasını qoydu. Onun qohumu Knyaz Vladimir Kiyevdə 988-ci ildə Kiyev Rusunu "vəftiz etdi".

Allahın Padşahlığının sirri budur ki, İsa Məsihi öz Rəbbi və Xilakarı kimi qəbul edən hər kəs Allahın varlığının bir parçasına çevrilir (2 Peter 1:4), əbədi həyata malik olur (Yəhya 6:47), göylərin vətəndaşı olur (Filipililərə 3:20), yeni bəşəriyyətin üzvünə çevrilir, artıq Adəmdən deyil, Məsihdəndir (Romalılara 5). Səmavi padşahlığın sirri və vəhyi həvarilərə, o cümlədən onlardan sonrakı imanlı nəslə belə bildirildi ki, biz imanlılar artıq səmavi Yerusəlim və "ilk doğulanların ümumi məclisində" zəfəri qeyd edirik. Adımız göylərdə qeyd olunub (İbranilərə 12:22-23), biz Məsihin "Onunla birlikdə dirildib səmada oturtduğu" (Efeslilərə 2:6) Gəlninə xidmət edirik. Məsih bizdə yaşayır, biz Rəbbin övladlarıyıq, Onun səltənətinin sakinləriyik; biz İsa-

da, Onunla yaşayırıq və Səmavi Padşahlıq — bizdə, bizim vasitəmizlə yaşayır.

Bütün bu əsrlər boyu Tanrı Əllinci Gün bayramından başlayaraq, qanlı təqiblər, fədakar həsr olunmalar, uzun əsrlər davam edən dəhşətli "səmadakı ruhani şər qüvvələrə qarşı..." (Efeslilərə 6:12) aparılan savaşla kainatın əsas məqsədini — kilsəni yaradır.

"Sanki odla qarışıq şüşədən olan bir dəniz gördüm. Vəhşi heyvana, onun surətinə və adına aid saya qalib gələnlər əllərində Allahın verdiyi çənglərlə şüşə dənizin üstündə durub. Onlar Allahın qulu Musanın nəğməsini və Quzunun nəğməsini oxuyaraq deyir: 'Ey Külli-İxtiyar Rəbb Allah, Sənin işlərin böyük və heyrətlidir. Ey millətlərin Padşahı, Sənin yolların ədalətli və həqiqidir. Ya Rəbb, kim Səndən qorxmaz, Kim Sənin adını izzətləndirməz? Çünki yalnız Sən müqəddəssən. Bütün millətlər gəlib Sənin önündə səcdə edəcək, Çünki Sənin ədalətli hökmlərin aşkar oldu'" (Vəhy 15:2-4).

"Mələk mənə həyat suyu axan çayı göstərdi. Bu çay büllur kimi parlaq olub Allahın və Quzunun taxtından çıxır və şəhərin baş küçəsinin ortasından axırdı. Çayın hər iki tayında on iki cür meyvə gətirən həyat ağacı var idi. O ağac hər ay meyvə gətirir. Onun yarpaqları millətlərə şəfa vermək üçün-

dür. Daha lənətlənən heç bir şey olmayacaq. Allahın və Quzunun taxtı orada olacaq və qulları Ona ibadət edəcək. Onlar Onun üzünü görəcək, alınlarında Onun adını daşıyacaqlar. Artıq gecə olmayacaq, heç kəsin çıraq və günəş işığına ehtiyacı olmayacaq. Çünki Rəbb Allah onlara işıq verəcək və onlar əbədi olaraq padşahlıq edəcək" (Vəhy 22:1-5).

Bu həqiqətən müasir dövrdə Onun müqəddəsləri, İsa Məsihə iman edənlər üçün hazırlanmış gələcəkdir, çünki onlar gözlərini "görünən şeylərə deyil, görünməyən şeylərə dikir, çünki görünənlər gəldi-gedər, görünməyənlərsə əbədidir" (2 Korinflilərə 4:18).

XİLASI AXTARANLAR ÜÇÜN BİR NEÇƏ MƏSLƏHƏT

Ola bilsin ki, sən artıq bir neçə dəfə tövbə edib Allahdan bağışlanma diləmisən, amma hər şey olduğu kimi qalıb. Bilirsən ki, əgər hər şey olduğu kimi qalsa, sən yolunu azmış günahkarsan və səni cəhənnəm əzabı gözləyir. Sən çarəsizsən və nə edəcəyini bilmirsən. Əgər belədirsə, icazə ver sənə bir məsləhət verim.

Amma əvvəlcə biz səninlə qərar verməliyik: imanımızın təməli, həyatımızda ruhani baş verə biləcək istənilən hadisədə Allahı tanımaq üçün əsas və yeganə nüfuz bizim üçün Müqəddəs Kitabdır. Yalnız Müqəddəs Kitab!

Müqəddəs Kitabda İsa Məsih deyir: "yanıma gələni heç vaxt kənara atmaram" (Yəhya 6:37). İsa Özü barədə belə dedi: "Çünki Bəşər Oğlu itmişləri xilas etməyə gəlmişdir" (Matta 18:11).

Yəni, sənin xilasın — Onun çarmıxda ölməsi və ölülər arasından dirilməsinin mənası, İsa Məsihin yer üzünə gəlişinin məqsədidir. İlbəil hər dəfə tövbə edərək eyni yerdə dövr etməmək üçün bu hislərlə xilasın sevinci və əminliyini gələcəkdə itirməmək üçün nə etməlisən?

Təklif etdiyim addımları yaxşı olardı ki, kilsə xidmətçisinin yanında və ya yetkin bir imanlı məsihçi ilə birlikdə edəsən. Əgər belə birisini tanımırsansa, o zaman özün də tövbə edə bilərsən.

Həvari Paul öz vəzində belə deyir: "Allah cəhalət zamanlarında buna göz yumdu, amma indi hər yerdə hamının tövbə etməsini insanlara əmr edir" (Həvarilərin İşləri 17:30).

Necə bunu etmək olar? Sən diz çökürsən və deyirsən (bütün qəlbinlə, səmimiyyətinlə, yoxsa bunu etməyinə dəyməz).

"Ey Rəbbim və Allahım! Bilirəm ki, mən günahkaram.

Mən təkcə çoxlu günah etməmişəm, eləcə də onların adını çəkməyə dilim gəlmir. Rəb-

bim, mənim təbiətim günahlıdır, çünki, mən günahdan zövq alırdım. Mən günahkara qarşı rəhmli ol! Bütün günahlarımı bağışla, Öz mərhəmətinlə məni şər əməllərimdən təmizlə!

Rəbb İsa Məsih, Sənə minnətdaram, çünki Sən bütün günahlarımı Öz üzərinə götürüb məni satın aldın və təmizlədin! XİLASI AXTARANLAR ÜÇÜN BİR NEÇƏ MƏSLƏHƏTİ mənə verdiyinə görə Sənə minnətdaram.

Mənim üçün söylədin: "Yanıma gələni heç vaxt kənara atmaram". Budur, Sənin yanına gəldim və bütün qəlbimlə inanıram ki, məni kənara atmayacaqsan, əksinə bağışlayıb, qəbul edəcəksən.

Günahlarımın bağışlanmasına və əbədi həyata görə sənə minnətdaram! Sənin Kəlamına inanıram! Özün dedin ki, Sənə inananlar və Səni qəbul edənlər əbədi həyata malikdir və məhkəmə önünə çıxarılmayacaqlar, lakin artıq ölümdən həyata keçiblər. Rəbbim, Sənə minnətdaram!

Səmavi Ata! Mən İsa Məsihə, Kəlamına inanıram. Özün dedin ki, İsa Məsihə iman edənlər Sənin övladların olacaq. Sənin Kəlamına inanıram. Artıq mən də Sənin övladı-

nam! Bu böyük şərəfi dərin minnətdarlıq və sevinclə qəbul edirəm!

Öz Kəlamında demisən ki, Sənə iman edənlər Müqəddəs Ruhu bəxşiş alırlar. Mən Sənin bu Kəlamına inanıram və Səndən xahiş edirəm: bundan sonra və əbədi olaraq Müqəddəs Ruhunla qəlbimdə yaşa.

Həyatımı Sənə və iradənə həsr edirəm – bütün əməllərimi, düşüncələrimi və sözlərimi: hər şeyi Sənə təslim edirəm! Sən mənim Allahım, Rəbbim və Xilaskarımsan! Mənim həyatım əbədi olaraq sənə məxsusdur!

Ya Rəbb, Allahım və Xilaskarım, mən şeytandan, onun gücündən, bütün işlərindən və həyatımda onunla əlaqəli olan hər şeydən imtina edirəm. Ya Rəbb, müqəddəs Allahım, qəlbimi Sənə verirəm və izzətinə görə Həyatını qəbul edirəm! Amin!"

Əgər sən bu duada səmimi idinsə, şübhəsiz ki, Rəbb ürəyinin istəyini yerinə yetirdi. Sən indi Allahın övladısan. Sən Onun Kəlamını bilirsən, O deyir: "Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi" (Yəhya 1:12).

Mən sənə “Allahın övladları olmaq səlahiyyəti” sözünə diqqət etməyi məsləhət görürəm. Artıq sənin günah, sınaq və öz üzərində səlahiyyətin var. İndiyədək günahın sənin üzərində səlahiyyəti var idi, artıq sən günah üzərində səlahiyyətə maliksən. Bu səlahiyyətdən istifadə et. Özünü öyrət ki, fikirlərini idarə edə biləsən, əməllərini və sözlərini Rəbbin Kəlamına uyğun edəsən və ancaq Onun iradəsini yerinə yetirəsən. Bu çaparların atı çapmasına bənzəyir, onlar atı cilovlayaraq çapara itaət etməsini ata öyrədirlər. Eləcə də, səndə yaşayan Müqəddəs Ruhun gücü ilə öz bədənini cilovlaya bilərsən. Beləliklə görəcəksən ki, zamanla sənin xasiyyətin dəyişməyə başlayır.

Bu gücü boşa verməmək, imanla özünü gücləndirmək və təqdis etmək üçün sənə hər gün Müjdələri oxumağı məsləhət görürəm. Mən sənə gündə ən azı yarım saat oxumağa vaxt ayırmağı məsləhət görürəm. Əgər daha çox vaxt ayıra bilsən, daha yaxşı olar.

Dua etmək üçün vaxt təyin et. Duaya alışmaq üçün müəyyən vaxtlarda dua etməyi tövsiyə edirəm. Səhər, günorta və axşam — yaxşı təcrübədir. Eləcə də, sənə məsləhət görürəm ki, istənilən səbəbdən yaranmış hər məsələdən ötrü gün ərzində dəfələrlə qəlbində dua etməyi öyrən. Qəlbin sənə minnətdar olacaq.

İndi isə çox mühüm bir məsləhəti vermək istəyirəm: Müjdənin vəz olunduğu, yalnız İsa Məsihə ibadət olunduğu bir kilsə tap (imanlı dostlarla ünsiyyətsiz irəliləmək mümkün deyil) və vəftiz ol.

Vəftizi hardasa nikaha oxşatmaq olar. Vəftiz olunaraq insan əyani iqrar edir ki, İsa Məsih ölüb, ölülərdən dirilməsinə tamlıqla iman edir. İsa Məsih dedi: "İman edib vəftiz olan kəs xilas olacaq, iman etməyənsə məhkum olacaq" (Mark 16:16).

O bizə tapşırıq verdi: "Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm" (Matta 28:19-20). Yəni, sənin artıq bir xidmətin — İsa Məsihin sənin üçün etdikləri barədə başqalarına şəhadətlik etmək xidmətin var.



Dirilmənin gücü Tanrının kilsəsinin gücüdür. O, bu güclə yaşayır. Bununla təchiz olunaraq kilsə Allahın Padşahlığı uğrunda bütün yer üzündə insanların qəlbini fəth edir.

"Kəlam bəşər olub,
lütf və həqiqətlə dolu olaraq
aramızda məskən saldı..."

Yəhya 1:14

AZ